# Qəbələ iqtisadiyyatı 2013-cü ilin birinci yarısında

(Əvvəli 5-ci səhifədə).

2013-ci ilin birinci yarım ili ərzində Qəbələ rayon sənayesində fəaliyyət göstərən müəssisələr tərəfindən 7815 min manatlıq və ya əvvəlki ilin müvafiq dövründən 1,9 faiz çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 71,4 faiz təşkil etmişdir.

2013-ci ilin birinci yarım ili ərzində Qəbələ rayonunda 3257,9 min manatlıq meyvə şirəsi emal edilmişdir. Emal edilmiş meyvə şirələrinin hamısı satılmışdır.

Qəbələ rayonunda 2013-ci ilin birinci yarım ili ərzində 5882.6 min manatlıq məhsul istehsal edilmiş və 1932,4 min manatlıq sənaye xarakterli xidmətlər göstərilmişdir.

2013-ci ilin birinci yarım ili ərzində sənaye müəssisələrində çalışan 741 nəfərin orta aylıq nominal əmək haqqı 363 manat təşkil etmiş və əvvəlki illə müqayisədə 19,6 faiz çoxalmışdır.

2013-ci ilin birinci yarım ili ərzində rayonda əsas kapitala yönəldilmiş investisiyanın həcmi 51752 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 49656.3 min manat təşkil etmişdir. Keçən illə müqayisədə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 6911.7 min manat, yaxud 12,2 faiz azalmışdır.

2013-ci ilin birinci yarımili ərzində umumi sahəsi 8350 kvadratmetr olan 75 fərdi ev tikilib istifadəyə verilmişdir.

2013-ci ilin birinci yarımili ərzində hər biri 500 başlıq olan modem heyvandarlıq kompleksinin tikintisi başa çatmış, Nic qəsəbəsində 360 yerlik, Tövlə kəndində 180 yerlik məktəb binası, Milli Təhlükəsizlik Nazirliyi Qəbələ Rayon Bölməsi və Qəbələ Mədəniyyət mərkəzi üçün inzibati binalar tikilib istifadəyə verilmiş, Səməd Vurğun, Nizami, Zərifə Əliyeva küçələrinin yenidən qurulması başa çatmışdır.

Məşğul əhalinin 81 faizi və ya 41582 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 34929 nəfəri və yaxud 84 faizi kəndli təsərrüfatlarda, 4,6 faizi yaxud 1913 nəfəri fiziki şəxslər, yerdə qalan 4740 nəfəri və ya 11,4 faizi isə digər sahələrdə çalışanlardır.

2003-cü ilin oktyabr ayının 1-dən 2013-cü il iyul ayının 1-nədək rayonda 11373 yeni iş yeri açılmışdır ki, onun da 9325 daimi iş yerləridir.

**QƏBƏLƏ RAYON STATİSTİKA İDARƏSİ.**

# Bakıda Azərbaycan–ABŞ biznes forumu keçiriləcək

Bu ilin payız aylarında Azərbaycan-ABŞ biznes forumu keçiriləcək. Bunu Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) prezidenti Rüfət Məmmədov bildirib.

Onun sözlərinə görə, tədbirin Bakıda keçirilməsi planlaşdırılır: «Ümumiyyətlə, ABŞ-da ixracın təşviqi ilə bağlı bir çox təşkilatlar mövcuddur. Onların biri ilə AzPROMO əməkdaşlıq edərək bu tədbiri Bakıda təşkil etməyi planlaşdırırıq».

R. Məmmədov bildirib ki, biznes forumunda müxtəlif sahələri təmsil edəcək iş adamları iştirak edəcəklər. Xüsusilə kənd təsərrüfatı, qida sənayesi, yüngül sənaye, bərpa olunan enerji, turizm və digər sahələr əhatə olunacaq: «ABŞ tərəfi ilə təxminən 10-12 sahə üzrə bu tədbiri keçirməyi planlaşdırırıq. Eyni zamanda, bu tədbirə ixrac imkanlarının artırılması baxımından da yanaşırıq. AzPROMO ABŞ-a Azərbaycandan qeyri-neft məhsullarının ixracını artırmaq istəyir. Elə bu məqsədlə amerikalı iş adamlarını Azərbaycana dəvət edirik».

# Əməkdar müəllim

Tanrı hər kəsə bir ömür payı bəxş edir. O vaxt ömür yolu mənalı olur ki, yaşanan illər başqaları üçün örnək olur.

Haqqında söhbət açacağımız Fərman müəllim belə ömür yaşamını davam etdirən ziyalılardandır. Bəri başdan deyək ki, Qəbələdə böyükdən tutmuş kiçiyə kimi hamı onu mehriban insan, təşkilatçı təhsil işçisi kimi tanıyır. Müxtəlif səpkili tədbirlərdə etdiyi çıxışlar rəğbətlə qarşılanıb, ziyalı, ağsaqqal sözü kimi qəbul edilib. Toyda, yasda, digər ictimai yerlərdə insanların Fərman müəllimə böyük hörmətlə yanaşdığının şahidi olmuşam. Bax, belə həyat , yaşam tərzii ilə ömrünün 68-ci payızına gəlib çıxır Fərman müəllim.

Fərman Əzizlinin ömür yolu qədim Qəbələ (o vaxtki Qutqaşın) şəhərindən başlamışdı. O, 1945-ci ildə tanınmış el ağsaqqalı Məhəmməd kişinin ailəsində anadan olmuşdur. Fərman Əzizli 1953-cü ildə şəhər ibtidai məktəbin 1-ci sinfinə daxil olmuşdur. Ailə vəziyyəti ağır olduğuna görə gündüz məktəbində 9-cu sinfi bitirib sonra şəhər axşam məktəbinə daxil olub. Gündüzlər əmək fəaliyyəti ilə məşğul olan Fərman Əzizli yaxşı işçi, nümunəvi əxlaq sahibi kimi az vaxt ərzində kollektiv arasında özünü tanıtdırdı. Üç il istehsalatda işləyən gənc Fərman 1967-ci ildə Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna əla qiymətlərlə daxil olur. O, İnstitutda da əla qiymətlərlə oxuyub. Birinci kursu müvəffəqiyyətlə başa vurduqdan sonra artıq Fərman Əzizli institutda bacarıqlı bir tələbə kimi rəhbərliyin diqqətini cəlb edir. İkinci kursun əvvəlində institutun rektoru mərhum professor Şövqi Ağayev gənc Fərmanı Pedaqoji İnstitutun ən böyük yataqxanasında (burada 1200 nəfər gənc yaşayırdı) tələbə sovetinin sədri, fakültənin tələbə inşaat dəstəsinin komandiri təyin edir. Yay semestr imtahanları başa çatdıqdan sonra Fərman 89 nəfər tələbə ilə birlikdə İmişli rayonuna göndərilir. Tələbə Fərman işi qəbul edir. O zaman İmişli şəhərindən cənub tərəfdə, 5 km ərazidə yerləşən Rəsullu kəndində, Araz çayının kənarında böyük bir yağ-pendir zavodu tikilirdi. Burada işləyəcək tələbə inşaat dəstəsinə rəhbərlik də Fərman Əzizliyə həvalə edildi. İlk gündən işə ciddi başladı. 3 ay müddətində tikinti, demək olar ki, başa çatdırıldı. Azərbaycan Respublikası üzrə Fərman Əzizlinin komandirlik etdiyi tələbə inşaat dəstəsi birinci yerə çıxdı. Bakı şəhərində Dövlət Dram Teatrında toplantı keçirildi. Qalib kimi Fərman Əzizli mükafatlandırıldı. Eyni zamanda işlədiyi İmişli rayonunun rəhbərliyi tərəfindən Fəxri fərmanla təltif edildi.



Fərman müəllimin həyat yolu çox zəngindir. 1971-ci ildə N. Tusi adına APU-nu fərqlənmə diplomu ilə bitirdikdən sonra Qəbələ şəhər ibtidai məktəbdə müəllimlik fəaliyyətinə başlayıb. Sonralar rayonun bir sıra məktəblərində çalışıb. 1977-ci ildən isə Fərman müəllim Qəbələ şəhər 4 saylı tam orta məktəbində tərbiyəçi müəllim vəzifəsində işləyir. 1979-cu ildə əmək fəaliyyətinə görə ona Azərbaycan Respublikasının qabaqcıl Maarif xadimi, həmçinin metodist tərbiyəçi adı verilir. Fərman üç il rayon Maarif Evinin direktoru vəzifəsində işləyir. Burada da o, işgüzar, ciddi, dərin düşünən bir pedaqoq kimi tanınır. Onun qabaqcıl təcrübəsi respublikada fəaliyyət göstərən maarif işçiləri evi tərəfindən (o vaxt 27 rayonda) geniş yayılır və keçirilən musabiqələrdə birinci yeri tutur. O, respublika Həmkarlar İttifaqının pul mükafatını alır.

Fərman müəllim ömrünün illərində pillə-pillə ucalıb, yüksəlib. O, 1984-cü ildə yenidən şəhər 4 saylı tam orta məktəbinə direktor müavini vəzifəsinə göndərilir. Eyni zamanda Fərman Əzizli rayon müəllimlər şurasının sədri vəzifəsində işləyir. Fərman müəllim bu sahədə yorulmadan çalışdı, bilmədiklərini ən təcrübəli müəllimlərdən öyrəndi, təhsilin incə sirlərinə yiyələndi. Yaşlı müəllimlər, ali təhsilini başa vurub işləməyə gələn gənc kadrlara qayğı və həssaslıqla yanaşdı. İşə dərindən nüfuz etməsi, nöqsanlara qarşı barışmaz mövqe tutması nəticəsində məktəbdə dərsə davamiyyət, təlim-tərbiyə işləri yaxşılaşdı. Təcrübəli, zəhmətkeş təşkilatçı direktor müavini Fərman müəllim N. Apayev adına şəhər 4 saylı tam orta məktəbin direktoru vəzifəsinə irəli çəkildi. Bu vəzifədə 6 il çalışır. Burada da o, səmərəli fəaliyyət göstərdi, təlim-tərbiyə işini canlandırdı. öz işini müasir tələblər səviyyəsində qurdu, qabaqcıl nedaqoji təcrübədən yaradıcılıqla istifadə etdi, yenilik hissi ilə işləyən müəllimlərin təcrübəsini yaydı. Elə buna görə də onun işlədiyi məktəb 10 məktəb arasında öncül yerlərdən birini tutmuşdur. Fərman müəllim məktəbə rəhbərlik edərkən nümunəvi müəllimlərin, ali məktəblərə qəbul olunan məzunların sayı daha da artdı. O, 3 dəfə müəllimlərin respublika qurultayına nümayəndə seçilib. Fərman müəllimə daha yüksək mükafat ölkə başçısı cənab İlham Əliyevin 2008-ci il tarixli sərəncamı ilə verilib. O, bu sərəncamla «Əməkdar müəllim» adına layiq görülüb.

Fərman müəllim hazırda pensiyaçı olsa da, gündəlik mətbuatı izləmək, informasiya ilə zənginləşmək vərdişini özündə yaşadır, rayonun ictimai, siyasi, mədəni həyatında yaxından iştirak edir. O, bu gün ağsaqqal ziyalı kimi ölkəmizdə, o cümlədən Qəbələdə həyata keçirilən quruculuq və iqtisadi inkişafın gənclər arasında YAP-ın ən yaxşı təbliğatçılarındandır.

**Aslan CƏLİLOV.**